1_Layout 1 27.02.2025 12:48 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 4 (692)

28 fevral 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# SUVERENLİYİMİZ TAM, ƏRAZİMİZ BÜTÖV, İNKİŞAFIMIZ DİNAMİKDİR

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Suverenliyimiz tam, ərazimiz bütöv, inkişafımız dinamikdir" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



Demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yolu seçmiş hər bir dövlətin siyasi-hüquqi strukturu, ictimai münasibətlər sistemi ümumxalq iradəsi əsasında müəyyənləşən, beynəlxalq hüquq normaları ilə uzlaşan fundamental prinsiplərə söykənir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ictimai-siyasi həyatın bütün sahələri üzrə dövlətin hüquqi bazasının möhkəm təməllər üzərində qurulması, ədalət prinsiplərinə ciddi riayət olunması sabitliyin, vətəndaş həmrəyliyinin və dinamik iqtisadi inkişafın başlıca şərtlərindəndir. Hüquqi dövlətin mahiyyəti isə cəmiyyətin əsas qanunu, bazisi qismində çıxış edən Konstitusiyanın ümumbəşəri demokratik dəyərlərə nə dərəcədə uyğun olub-olmaması ilə şərtlənir.

Hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən, dünya nizamına inteqrasiya kursunu əzmlə həyata keçirən Azərbaycanda da Konstitusiya ən yüksək hüquqi qüvvəyə malik olan, insan, dövlət və cəmiyyət münasibətlərinin əsaslarını tənzimləyən normalar sistemidir. Azərbaycan Konstitusiyası nəinki dövlətin, habelə xalqın dövlətçilik iradəsini, suverenliyi ifadə edən əsas qanun olmaqla, insan və vətəndaşın hüquq və azadlıqlarını, hakimiyyətin ictimai-siyasi institutlarının fəaliyyətini, xalqın özünüidarə sistemini tənzimləyir, vətəndaş cəmiyyətinin formalaşmasının və inkişafının hüquqi əsası qismində çıxış edir.

Prezident İlham Əliyevin 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Sərəncamında deyilir: "Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir".

### Müstəqilliyin ilk Konstitusiyası

1995-ci ilin noyabrın 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu ölkənin ictimai-siyasi həyatında əlamətdar bir hadisə oldu. Müstəqillik aktı 1991-ci ildə qəbul edilsə də, onun hüquqi əsasını təşkil edən Konstitusiya 1995-ci ildə işlənib hazırlandı. Bunun bir səbəbi keçmiş "Dağlıq Qarabağ problemi" ilə bağlı idisə, digəri müstəqilliyin ilk illərində Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar edilməsinə mane olan məlum hadisələrin baş verməsi ilə əlaqədar idi.

Dövlət quruculuğu prosesinin reallaşması ilk növbədə ictimai sabitliyin təmin olunmasından asılı idi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı bu sahədə bir sıra mühüm addımların atılması ilə nəticələndi və həmin dövr, əslində, Azərbaycanın yeni tarixinə müstəqil dövlət quruculuğu prosesinin başlanğıc mərhələsi kimi daxil oldu.

Bu baxımdan Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Əsas Qanunumuz və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Vətən müharibəsi və 2023-cü ilin antiterror əməliyyatından sonra bərpa etdiyimiz dövlət suverenliyimiz xalqımızın təkcə əsrləri əhatə edən arzusu deyil, həm də tariximizin bizim qarşımızdakı tələbi idi. Azərbaycan xalqı öz rəhbərinin liderliyi ilə bu möhtəşəm sınaqdan üzüağ çıxmağı bacardı və müstəqillik yolunda növbəti mərhələnin bünövrəsini qoymağa müvəffəq oldu. İndi tam əsasla deyə bilərik ki, Əsas Qanunumuz tariximizin ilk və yeganə müstəqillik Konstitusiyasıdır!

### Heydər Əliyev ideyaları və dövlətçilik ənənələri

Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən, xalqımız 2023-cü ili "Heydər Əliyev İli" kimi qeyd etmişdir. Həmin sərəncamda qeyd edilir ki, dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul olunur. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Bugünkü modern Azərbaycan məhz Heydər Əliyev ideyaları və dövlətçilik ənənələrinə sadiqliyin bəhrəsidir. Xalqımızın hər gün Zəfər gününü yaxınlaşdırması, bunun üçün hər bir fərdin cavabdeh olduğu sahədə fəal çalışması, vətəndaşların Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək düşmənin üzərinə endirilən "dəmir yumruq" olması və nəticə etibarilə ölkəmizin nüfuzunu dünya miqyasında yüksəklərə qaldıran, tarixi ədalətin bərpasına səbəb olan Qələbəmizə nail olması məhz Ulu Öndər Heydər Əliyev yoluna sadiqliyinin bariz göstəricisidir.

### Zamanla səsləşən islahatlar

Konstitusiya hüquqi sistemin nüvəsini təşkil etməklə digər qanunların mahiyyətini müəyyən edir. Ölkədə fəaliyyətdə olan və müxtəlif sahələrin işini tənzimləyən bu qanunlar Əsas Qanunla ziddiyyət təşkil etməməli, əksinə, onu tamamlamalıdırlar.

Azərbaycan Respublikasının Konstitusiyası 30 il ərzində çox geniş təkmilləşdirmə və inkişaf yolu keçmişdir. Üç dəfə - 2002-ci, 2009-cu və 2016-cı illərdə Azərbaycan Respublikası Konstitusiyasının mətnində referendum yolu ilə dəyişikliklər edilmişdir. Bu dəyişikliklər əsas etibarilə cəmiyyətin inkişafı, yeni çağırışların ortaya çıxması və dövlət idarəçiliyinin təkmilləşdirilməsi məqsədilə həyata keçirilmişdir.

### Gələcək hədəflərə doğru

2003-cü ildə xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident seçilmiş və hakimiyyətinin ilk anlarından etibarən Ulu Öndərin dövlətçilik konsepsiyasını uğurla reallaşdırmağa başlayan cənab İlham Əliyevin çoxşaxəli və uğurlu fəaliyyətinin əsasında duran yeganə amal və hədəf işğalda olan torpaqlarımızın geri qaytarılması idi. Bunsuz Azərbaycan xalqının şanlı tarixi missiyasını tam hesab etmək mümkün deyildi. Müstəqil Konstitusiyamızın tam suverenlik olmadan fəaliyyəti Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu strategiyasının icra edilməmiş qalması anlamına gələ bilərdi. Bu baxımdan dövlətin fəaliyyətinin bütün sahələri Azərbaycan Prezidenti tərəfindən qələbə naminə səfərbər edilmişdir. Güclü iqtisadiyyatın yaradılması, qüdrətli ordunun qurulması, effektiv xarici siyasət, dövlətin və cəmiyyətin müxtəlif sahələrində həyata keçirilən islahatların başlıca hədəfi məhz düşmən üzərində zəfərə, tarixi ədalətin və suverenliyin bərpası amallarına xidmət edirdi.

2020-ci ilin 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmiz, sonrakı üç il ərzində dövlətin bu tarixi hərbi-siyasi uğurunu möhkəmlətmək istiqamətində atdığı addımlar, 2023-cü ildə isə cəmi bir günə Azərbaycan ərazisindəki separatizmə son qoyulması suverenliyin bərpası salnaməsinin əsasını təşkil edir. Bununla müstəqillik tariximizdə ilk dəfə sərhədlərimizin bütövlüyünə və Vətənimizin ən ucqar guşəsində belə müqəddəs üçrəngli bayrağımızın dalğalanmasına nail olduq.

Bununla belə, suverenliyin bərpası təkcə siyasi və hərbi proses deyil, bu həm də xalqımızın mənəvi birliyinin, bütövlüyünün, həmrəyliyinin təcəssümü, reallıqdakı əksidir. Azərbaycan xalqının Lideri - Prezident İlham Əliyevin rəhbərliyi ilə nail olduğumuz bu dəyərlər mənbəyini 1995-ci ilin 12 noyabrından - ilk müstəqillik Konstitusiyamızın qəbul edildiyi gündən götürür. O Konstitusiya ki, Ulu Öndər Heydər Əliyevin tükənməz Vətən sevgisinin məhsulu olaraq, qəlbinin xalqla döyünməsi və müəllifliyi ilə ərsəyə gəlmişdir.

2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi xalqımızın, xüsusilə yeni nəslin gələcək inkişafının hansı istiqamətdə müəyyən olunması baxımından tarixi əhəmiyyətə malikdir. Bu gün Azərbaycan xalqı özünün yeni inkişaf tarixinə qədəm qoyub. İndi dövlət suverenliyi tamdır, ərazilərimiz bütövdür, sərhədlərimiz isə toxunulmazdır. Mövcud daxili sabitliyin möhkəmlənməsinə və iqtisadi yüksəlişin daha da sürətlənməsinə əlavə stimul verəcək tam suverenlik şəraitində bu pozitiv dinamikanı qoruyub saxlamaq, uğur və nailiyyətləri artırmaq xalqımızın və dövlətimizin qarşısında duran prioritet vəzifədir.

# PREZİDENTİN NÖVBƏTİ QARABAĞ SƏFƏRİ

## Böyük qayıdış proqramının icrası davam edir

Azərbaycanın 2030-cu ilədək 5 milli prioritetindən biri Böyük qayıdış proqramının icrasıdır. Təbii ki, 4 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə regionda xeyli yaşayış evi, sosial obyekt tikilib, yol-nəqliyyat infrastrukturu, istehsal müəssisələri istifadəyə verilib. İşğaldan azad edilmiş ərazilərdə başlanan işlərin xronologiyasına nəzər salanda heyrətlənməmək olmur. Nəhəng infrastruktur layihələrinin qısa müddətdə icrası möcüzə təsiri bağışlayır. Sözsüz ki, həmin möcüzəni yaradanlardan birincisi Prezident İlham Əliyevdir.



Dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın fevralın 18-19-da Ağdam və Xankəndiyə etdiyi növbəti səfəri də bu qəbildəndir. Səfər proqramı Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunan "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanışlıqla başladı. Ümumi sahəsi 2,16 hektar olan hotel 2, 6 və 7 mərtəbəli 3 bloklu binadan ibarətdir. Ən müasir standartlara cavab verən hotel binasında 127 otaq var. Burada qonaqların zövqünü oxşayan interyer işləri görülüb. "Hilton Garden İnn" hotelində 100-dən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Sonra "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edən Prezidentə məlumat verildi ki, ikimərtəbəli mərkəzin birinci mərtəbəsində hər birinin gücü 2500 Kva olan 350,4 kilovotluq 2 güc transformatoru, 35 və 0,4 kilovotluq qapalı paylayıcı qurğular, ikinci mərtəbəsində idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Azərbaycan musiqisinin beşiyi olan Qarabağda 30 il musiqi sədaları kəsilmişdi, muğam zəngulələri eşidilmirdi. Qarabağın musiqisini özünə qaytarmaq, yeni musiqi və xanəndələrin yetişməsi üçün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hələ 2023-cü il mayın 2-də Ağdam Muğam Mərkəzinin təməlini qoymuşlar. Onlar indiki səfər çərçivəsində Muğam Mərkəzinə də baş çəkdilər. Mərkəzdə 14 dərs otağı, sərgi salonu, iclas zalı, müəllimlər otağı və digər otaqlar fəaliyyət göstərəcək. Ağdam Muğam Mərkəzinin ərazisində 1250 kvadratmetrlik açıq amfiteatr da inşa edilib.

Sürətlə salınan yeni Ağdam şəhərində yeni bir ünvan var - "Ağdam Residence" yaşayış kompleksi. Təməli 2022-ci il fevralın 13-də İlham Əliyev tərəfindən qoyulub. Komplekslə tanışlıq zamanı dövlət başçısına və Mehriban xanım Əliyevaya məlumat verildi ki, ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin 6 yaşayış binası inşa edilib.

Savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq hər bir insanın mənəviyyatını zənginləşdirir. Qarabağlılar illər idi bu zənginliyi Azərbaycanın müxtəlif rayonlarında müvəqqəti məskunlaşdıqları ərazilərdə əldə edirdilər. Amma Böyük qayıdış onlara bu imkanı doğma yurdda qazanmağa imkan verir. Prezident səfər çərçivəsində Ağdam şəhərindəki yeni inşa edilən 960 şagidlik 1 nömrəli tam orta məktəbdə və 160 yerlik 1 nömrəli körpələr evi-uşaq bağçasında görülən işlərlə də tanış olub.

İşğaldan azad edilmiş ərazilər tarixi-mədəni abidələrlə zəngin olmuşdur. Bu gün həmin abidələr də bərpa edilir. Bu abidələrdən biri Əsgəran qalasıdır. XVIII əsrdə Qarabağ hakimi Pənahəli xanın göstərişi ilə inşa edilən Əsgəran qalasını ziyarət edən Prezident və xanımı orada görülən işlərlə tanış olublar.

Ağdamdan sonra Xocalının Ballıca kənd sakinləri ilə görüşən dövlət başçısı Xankəndidə "Bulud" hotelin açılışında iştirak edib. Ümumi sahəsi 5325 kvadratmetr olan hotel beş mərtəbədən ibarətdir. Dövlət başçısına məlumat verilib ki, hoteldə 50 nəfər işlə təmin olunub.

Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi Tikiş Fabriki dövlətlərimiz arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentinin tapşırığına əsasən inşa edilib. Xatırladaq ki, ötən ilin noyabrında Bakıda keçirilən COP29 zamanı İlham Əliyev və Şavkat Mirziyoyev tərəfindən videobağlantı vasitəsilə Xankəndi Tikiş Fabrikinin açılışı olmuşdur. Bu səfər çərçivəsində fabrikə baş çəkən Prezidentə məlumat verilib ki, müəssisə fəaliyyətə başlayandan bəri 50 minə yaxın idman köynəyi istehsal edilib. Bu il 924 min ədəd köynək istehsalı planlaşdırılır.

44 günlük savaşın qəhrəmanlığını özündə əks etdirən Zəfər parkları həm də Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpasının rəmzidir. Prezident İlham Əliyev budəfəki səfərində yeni bir rəmzə "imza atdı" – Xankəndi şəhərində Zəfər parkının təməlini qoydu.

**"Azərbaycan" qəzetinin materialları əsasında hazırlanıb.**

2_Layout 1 27.02.2025 12:46 Page 1



## İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATININ NÜMAYƏNDƏLƏRİ DAXİLİ QOŞUNLARIN HƏRBİ İNSTİTUTU İLƏ TANIŞ OLUBLAR



Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları Fəzail Həsənov və Murad Babayev fevralın 12-də Daxili Qoşunların Hərbi İnstitutunda olublar.

İlk olaraq, Hərbi İnstitutda "Şəhidlər abidəsi"nin önünə gül dəstələri qoyulduqdan sonra qurumun əməkdaşları ərazi ilə tanış olub, brifinq və sinif otaqlarına, yataqxanaya, yeməkxanaya və tibb məntəqəsinə ümumi baxış keçiriblər. İnsan hüquqları, eləcə də hərbi qulluqçuların hüquqları, Ombudsmanın fəaliyyət istiqamətləri barədə məlumat verilib, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparılıb.

Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların müxtəlif hərbi hissələrində Ombudsman Aparatının əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirmələri nəzərdə tutulur.

**Mətbuat xidməti**

## PEŞƏKAR VƏ MƏSULİYYƏTLİ İSTEHKAMÇILAR

16075 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında vacib rolu olan bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkam yarımqrupudur.

Xidmət müddətində verilən tapşırıqları uğurla yerinə yetirən xüsusi təyinatlı dəstənin istehkam yarımqrupunun komandiri - baş istehkamçısı baş çavuş Kamal Məmmədli söyləyib ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.



Hərbi hissə komandanlığı və dəstənin komandir heyəti tərəfindən müsbət xarakterizə olunan baş çavuş K.Məmmədli ötən müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb. Hərbi hissənin qərargahının kimya və mühəndis xidmətinin rəisi mayor İlkin Qasımov da istehkam yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduğunu qeyd edib.

Baş çavuş K.Məmmədli isə yarımqrupun nümunəvi hərbi qulluqçularından çavuşlar Xəyal Musayev, Zaminəli Kərimov və Sahil Əhmədlinin adlarını çəkib, xidməti vəzifələrini bundan sonra da yüksək peşəkarlıqla icra edəcəklərini bildirib.

**kapitan Şahin Cəfərzadə**

## "MƏŞĞƏLƏLƏRİN KEYFİYYƏTLİ TƏŞKİLİ MÜSBƏT NƏTİCƏLƏRİN ƏLDƏ OLUNMASINA TƏKAN VERİR"

99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsi yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrdəndir. Dəstənin şəxsi heyəti öz vəzifələrinin icrasına məsuliyyətlə yanaşır, ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir, cəlb olunduğu xüsusi əməliyyatlarda qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirir. Qeyd edək ki, ötən ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə dəstə hərbi hissə üzrə birinci yerə layiq görülüb.





Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri polkovnik-leytenant Şahin Mazanov yüksək intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkarlığın və gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğulayıb.





Dəstə komandiri bildirib ki, xidmət daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Praktiki və nəzəri məşğələlərin keyfiyyətli şəkildə təşkili və keçirilməsi, hər bir mövzunun fərdi qaydada mənimsənilməsi müsbət nailiyyətlərin əldə olunmasına təkan verir: "Gündəlik olaraq şəxsi heyətin xidmətə davamiyyətinin yoxlanılması, tərtib edilən cədvələ əsasən, məşğələlərin vaxtında keçirilməsi, hərbi qulluqçuların düzgün ekipirovkası və silahlanması təmin olunur. Komandir heyəti ilə məşğələlərə isə xüsusi diqqət yetirilir. Onların şəxsi heyətlə iş metodu və üsulları müəyyənləşdirilir, müvafiq tapşırıqlar verilir. Hər bir hərbi qulluqçudan təhkim olunmuş silah və xüsusi vasitələrin təyinatını, döyüş xüsusiyyətlərini bilməsi, təhlükəsizlik qaydalarına əməl olunması tələb edilir".



Şəxsi heyət arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və yoldaşlıq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də xidmətə yeni qəbul olunmuş hərbi qulluqçuların kollektivə uyğunlaşmalarına önəm verilir. Bu istiqamətdə xüsusi vasitələrin tətbiqi dəstəsinin hərbi qulluqçuları arasından seçilmiş fəalların fəaliyyətlərini müsbət xarakterizə etmək olar.

Polkovnik-leytenant Ş.Mazanov keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, funksional vəzifələrinin öhdəsindən layiqincə gələn, yoldaşlarına nümunə olan hərbi qulluqçulardan kapitan Qaçay Xəlilov, gizir Nazim Ağayev, baş çavuş Taleh Əfəndiyev və əsgər Muxtar Ağamirzəyevin adlarını çəkib, dəstənin bundan sonra da üzərinə düşən vəzifələri icra edərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə edib.

**kapitan Xədicə Hacızadə**

## KİÇİK KOMANDİR VƏ MÜTƏXƏSSİSLƏRİN HAZIRLIQLARI DİQQƏT MƏRKƏZİNDƏDİR

25032 saylı hərbi hissə tədris təyinatlı vəzifələri yerinə yetirir. Fəaliyyətində zəngin təcrübə toplayan hərbi hissə Daxili İşlər Nazirliyinin rəhbərliyinin diqqət və qayğısı nəticəsində xeyli inkişaf edib, maddi-texniki təchizatı daha da yaxşılaşdırılıb. Burada tədrisin yüksək səviyyədə təşkil olunması üçün hər bir şərait yaradılıb. Hərbi hissədə nəzərəçarpan səliqə-sahman, aparılan abadlıq və yenidənqurma işləri məhz şəxsi heyətə göstərilən qayğının təzahürüdür. Bu da öz növbəsində hərbi qulluqçuları qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirməyə ruhlandırır.





Hərbi hissə komandiri polkovnik Rəşadət Süleymanovla söhbət zamanı məlum oldu ki, tədris təyinatlı hərbi hissədə kiçik komandirlər, kiçik mütəxəssislər (rabitəçi və aşpazlar) hazırlanır və qoşunların hərbi hissələrinə göndərilirlər. Kurslar 3 ay olmaqla ildə 4 dəfə keçirilir. Hər bir kursun sonunda qəbul olunan imtahanları müvəffəqiyyətlə başa vuran hərbi qulluqçulara müvafiq şəhadətnamələr təqdim edilir.

Polkovnik R.Süleymanov bildirdi ki, hərbi hissədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən bölmələrdən biri kiçik komandirlər hazırlayan tədris bölüyüdür. Burada manqa komandirinin vəzifələrinin öyrədilməsi ilə yanaşı, kiçik komandirlərin metodiki ustalıqlarının, təşkilatçılıq və idarəetmə qabiliyyətlərinin artırılmasına da ciddi fikir verilir.

Məşğələlərin keyfiyyətli təşkili və keçirilməsində kiçik komandirlər hazırlayan tədris bölüyünün komandir heyətinin fəaliyyəti danılmazdır. Belə ki, kiçik komandirlərin hazırlanması kursu müvafiq proqramın tələblərinə uyğun təşkil olunur. Tədris proqramı üzrə biliklərə yiyələndikdən sonra hərbi qulluqçular təcrübə keçmək üçün hərbi hissələrə ezam olunaraq, manqa komandiri kimi fəaliyyət göstərirlər. Təyin olunmuş müddət bitdikdən sonra hərbi hissəyə qayıdırlar və Daxili Qoşunların Baş İdarəsi tərəfindən təsdiq olunmuş imtahan komissiyası əldə etdikləri bilikləri hansı dərəcədə mənimsədiklərini yoxlamaq məqsədilə onlardan imtahanlar qəbul edir. İmtahanları "əla" və "yaxşı" qiymətlərlə başa vuranlar "kiçik çavuş" hərbi rütbəsi verilməklə aidiyyəti üzrə vəzifələrə təyin olunurlar.

Hərbi hissənin üzərinə düşən vəzifələri bacarıqla yerinə yetirən digər bölməsi isə sürücü və kiçik mütəxəssis hazırlayan tədris bölüyüdür. Bölük komandiri - baş müəllim baş leytenant Murad Söhbətlinin sözlərinə görə, rabitə üzrə mütəxəssis hazırlayan taqımın şəxsi heyətinə qoşunların təchizatında olan rabitə və yüksək texnoloji vasitələrin, ultraqısa dalğalı, eyni zamanda qısa dalğalı radiostansiyaların taktiki-texniki xüsusiyyətləri izah edilir, işə salınması, istismarı, eləcə də radiomübadilənin aparılması qaydaları öyrədilir. Rabitəçilərlə gündəlik olaraq həm nəzəri, həm də praktiki məşğələlər keçirilir: "Rabitəçi mütəxəssislərin hazırlanması daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrinin tələblərinə əsasən təşkil edilir. Şəxsi heyətin ixtisas hazırlığı üzrə əsas təlim forması cihazlarda, fəaliyyətdə olan rabitə kanallarında praktiki məşğələlərdir. Məşğələlər zamanı stansiyalardan, sabit rabitə qovşaqlarından, orada olan texnikadan və başqa maddi-təlim bazalarından istifadə olunur. Rabitə vasitələrində işləmək üçün təlim ilk dəfə sinifdə və fəaliyyətdə olan cihazlarda, sonra səhra rabitə qovşaqlarında keçirilir. Hər bir məşğələnin sonunda öyrədilən materialın mənimsənilməsi araşdırılır və qiymətləndirilir".





Kiçik mütəxəssislərdən aşpazlarla məşğələlər ilk iki ayda nəzəri olaraq keçirilir. Sonuncu üçüncü ayda yeməkxanada yeməkxana rəisinin rəhbərliyi ilə onlarla praktiki məşğələlər təşkil olunur, müxtəlif təamlar hazırlanır. Aşpaz hazırlayan tədris taqımının komandiri-müəllim leytenant Umud Rzayev bildirdi ki, aşpazlara ərzaq payı normaları, yeməklərin bişirilməsi, səhra şəraitində hazırlanması, texnoloji avadanlıqlardan düzgün istifadə edilməsi öyrədilir, o cümlədən gigiyena qaydalarına ciddi riayət olunması üsulları aşılanır.

Göründüyü kimi, hərbi hissədə savadlı və bacarıqlı komandir, habelə mütəxəssis heyətinin hazırlanması üçün hərtərəfli şərait yaradılıb.

**kapitan Şahin Cəfərzadə**

3_Layout 1 27.02.2025 10:55 Page 1



# TARİXİMİZİN QAN YADDAŞI - QARADAĞLI FACİƏSİ



Ermənilərin Qarabağda Azərbaycan xalqına qarşı həyata keçirdikləri qanlı cinayətlərdən biri də Qaradağlı faciəsidir. 1992-ci il fevralın 17-də törədilən Qaradağlı faciəsi, əslində, bir günün, bir gecənin hadisəsi deyil, iki yüz ilə yaxın müddətdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı davamlı olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamı idi.

Qarabağ müharibəsində Xocavənd rayonunun ən çox faciəyə düçar olan, ağrı-acı yaşayan kəndlərindən biri Qaradağlıdır. Qaradağlı kəndi Xocavənd rayon mərkəzindən 13 kilometr qərbdə, Xocavənd-Xankəndi avtomobil yolunun kənarında, dağətəyi ərazidə yerləşir. 1988-ci ildə Dağlıq Qarabağda erməni separatçıları baş qaldırdıqları andan Xocavənd rayonunun Qaradağlı kəndinin də faciəli günləri başlandı. Kəndin sakinləri böyüyüb boya-başa çatdıqları doğma yurdun hər qarışı, hər daşı uğrunda mübarizəyə qalxdı, ermənilərə qarşı qeyri-bərabər döyüşlərdə şəhid oldular.

1990-cı il noyabrın 24-də 3 nəfər kənd sakini Xocavənd-Xankəndi yolunun 6 kilometrliyində erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirildi. 1991-ci il yanvarın 9-da kəndə gələn UAZ markalı avtomobil ermənilər tərəfindən atəşə tutuldu, bir nəfər öldürüldü, 4 nəfər yaralandı. Onlardan 2-si sonralar aldığı yaralardan dünyasını dəyişdi. Ermənilər 1991-ci il martın 8-də kəndin yaxınlığında 2 nəfəri vəhşicəsinə qətlə yetirdilər. Həmin il iyunun 28-də kəndin 3 kilometrliyindəki fermada 6 sakin - 3 kişi və 3 qadın diri-diri yandırıldı. 1991-ci il sentyabrın 8-də Ağdamdan Qaradağlıya gələn sərnişin avtobusu Xocavənd-Xankəndi yolunun 5-6 kilometrliyində erməni quldurları tərəfindən atəşə tutuldu. Avtobusdakı 40 nəfərə yaxın sərnişindən 2 kişi, 6 qadın həlak oldu. 1992-ci il yanvarın 8-də kəndin yaxınlığında daha bir azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, 100-ə yaxın qoyun ermənilər tərəfindən qənimət kimi aparıldı.

1992-ci il fevral ayının 14-də erməni quldurları xarici muzdluların, xüsusilə Xankəndidə yerləşən sovet ordusunun 366-cı alayının texnikasından və canlı qüvvəsindən istifadə etməklə əlaqəsi hər tərəfdən kəsilən, köməksiz qalan Qaradağlı kəndinə hücuma keçdilər. Kənddə olan 104 sakin və 14 əsgər sonuncu gülləyə qədər 4 gün düşmənlə mübarizə apardı. Döyüşlərdə biri qadın olmaqla, 14 nəfər həlak oldu. Silah-sursatı tükənən soydaşlarımız sonda ermənilər tərəfindən əsir və girov götürüldülər, onların növbəti məşəqqətləri başlandı.

Kəndin Bəylik bağı adlanan yerində 23 sakin erməni cəlladları tərəfindən güllələndi, əksəriyyəti silos quyusunda yaralı halda diri-diri basdırıldı. Sakinlərin bir hissəsi Qaradağlı-Xankəndi yolu üzərində yerləşən erməni kəndlərində maşınlardan düşürülərək güllələndi. İki nəfər Zəki bulağında, 2 nəfər Cəmiyyət kəndində öldürüldü. Girovluqda olan 8 nəfər kənd sakininə ermənilər əzab və işgəncələr verərək onları amansızlıqla qətlə yetirdilər. Dörd nəfər müxtəlif dövrlərdə şəhid oldu. Beş nəfərin taleyi bu günə qədər məlum deyil.

Beləliklə, erməni işğalçılarına qarşı 4 il qəhrəmanlıqla mübarizə aparan Qaradağlı kəndi 1992-ci il fevralın 17-də işğal edilərək yandırılıb, dinc əhaliyə qarşı soyqırım həyata keçirilib. İşğal zamanı 118 nəfər əsir götürülüb, 33 nəfər güllələnib. Erməni cəlladlar öldürülənləri və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək torpaqlayıblar. Ümumilikdə əsir və girov götürülənlərdən 68 nəfəri öldürülüb, 50 nəfəri böyük çətinliklərlə azad edilib. Girov götürülənlərdən 10 nəfəri qadın, 2 nəfəri məktəbli olub. Azad olunanların 5 nəfəri qadın olmaqla 18 nəfər aldıqları sağalmaz yaralardan sonralar vəfat edib. Əsirlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanmaları, döyülərək öldürülmələri insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi soyqırım cinayəti nəticəsində Qaradağlı kəndində iki ailənin hər birindən 4 nəfər qətlə yetirilib, 43 ailə öz başçısını itirib, 146 uşaq yetim qalıb. Qaradağlıya Ermənistan silahlı qüvvələrinin həmlələri zamanı qətlə yetirilənlərdən 10-u qadın, 8-i məktəbli olub. Qaradağlı kəndində 91 nəfər, kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşüb.

**Preslib.az saytının materialları əsasında hazırlanıb.**

# ŞƏHİD XÜSUSİ TƏYİNATLININ AİLƏSİNƏ BAŞ ÇƏKİLİB

İstər 44 günlük Vətən müharibəsi, istərsə də Qarabağ bölgəsində keçirilmiş antiterror tədbirləri zamanı igid oğullarımız Vətən torpağı naminə mərdliklə döyüşlərdə iştirak edərək can verdilər, qan tökdülər. Şəhadətə ucalan hər bir hərbi qulluqçumuzun adı xalqımızın yaddaşında əbədi olaraq qalacaqdır.



Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçulara və onların ailə üzvlərinə dərin rəğbət və ehtiram nümayiş etdirilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə daim göstərdiyi diqqət və qayğı göz önündədir. Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim nəzarətdədir.



99713 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Malik Quliyevin rəhbərliyi ilə bir neçə hərbi qulluqçu Daxili Qoşunların şəhid hərbi qulluqçusu çavuş Rauf Süleymanovun ailəsinə baş çəkib.

Qeyd edək ki, çavuş R.Süleymanov 1987-ci il mayın 29-da Neftçala rayonunun Abasallı kəndində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə şəhid Həsən Əliyev adına Abasallı kənd tam orta məktəbində alıb. Hələ yeniyetmə yaşlarından hərbi xidmətə böyük maraq göstərib, vətənpərvər ruhda tərbiyə alıb. O, müddətli həqiqi hərbi xidmətini 2005-ci ilin iyul ayından 2007-ci ilin yanvar ayınadək Daxili Qoşunların 12318 və 17072 saylı hərbi hissələrində keçib. Müddətli həqiqi hərbi xidmətini tamamladıqdan sonra 17072 saylı hərbi hissənin ayrı yerləşən atıcı dağ taborunun xüsusi təyinatlı qrupunda müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək, Vətənə olan şərəfli borcunu ləyaqətlə davam etdirib. Ayrı-ayrı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edərək komandanlığın ona göstərdiyi etimadı doğruldub. Sonuncu vəzifəsi 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupunda atıcı-snayper olub. Xidmət dövründə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi keyfiyyətləri ilə fərqlənən hərbi qulluqçumuz dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlarda fəal iştirak edən Raufun döyüş yolu qısa olsa da, Cəbrayıl istiqamətində vuruşarkən düşmənin xeyli sayda canlı qüvvəsinin məhv edilməsində böyük şücaət göstərib. 2020-ci il oktyabrın 5-də cəbhənin bu istiqamətində gözünü qırpmadan döyüş meydanına atılan cəsur xüsusi təyinatlımız düşmən gülləsinə tuş gələrək, əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlib. 2020-ci il oktyabrın 6-da Neftçala rayonunun Abasallı kənd qəbiristanlığında dəfn olunub.

Silahdaşları Rauf haqqında xatirələrini bölüşərkən bildirdilər ki, onun Kəlbəcərdən Cəbrayıladək keçdiyi qısa, lakin qəhrəmanlıqla zəngin şərəfli döyüş yolu hər bir gənc üçün nümunədir. Döyüşçü yoldaşları onun nümunəvi hərbi xidmətindən və döyüş meydanında göstərdiyi şücaətindən qürur hissi ilə bəhs etdilər. Qeyd olundu ki, çavuş R.Süleymanov intizamı, təlim-tərbiyəsi və xoş rəftarı ilə kollektivdə böyük hörmət qazanıb. Qorxmazlıq və mərdlik Raufun əsas xarakterik xüsusiyyətləri idi. Döyüş meydanında da hər zaman cəsarəti ilə seçilib, sərrast atəşi ilə düşmənin onlarla canlı qüvvəsini məhv edib, hərbi anda sadiq qalıb.

Ailə üzvləri də şəhid haqqında danışarkən vurğuladılar ki, Rauf olduqca vətənpərvər və qoçaq oğul olub. Öz tərbiyəsi, əxlaqı və davranışı ilə hər kəsin sevgisini, hörmətini qazanıb. O, hər zaman yaxınlarının, ailə üzvlərinin qayğısına qalıb, onlara arxa-dayaq olub, maddi və mənəvi köməyini əsirgəməyib.

Raufu itirmək ailə üzvləri üçün nə qədər çətin və ağır olsa da, yenə də onunla fəxr edir, qürur duyurlar. 30 ilə yaxın erməni tapdağı altında qalan torpaqlarımızın düşməndən tamamilə azad olunması isə olduqca böyük sevincdir. Ailə Rauf və onun kimi şəhidlik məqamına ucalmış hərbi qulluqçularımızın xatirəsini həmişə əziz tutur.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Süleymanov Rauf Allahverdi oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

**kapitan Xədicə Hacızadə**

*Qazilərimiz*

# DÜŞMƏN PUSQUSUNU DƏF EDƏRKƏN AĞIR YARALANAN VƏTƏNPƏRVƏR DÖYÜŞÇÜ

Dövlət və xalq olaraq müharibənin çətin sınaqlarından keçmişik. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın bir hissəsi işğal edilərək uzun illər yağı tapdağında qalıb. Çoxlu sayda soydaşımız öz el-obasından didərgin düşüb. Onların ürəkləri yurd həsrəti və qisas hissi ilə döyünüb. Xocalı və digər soyqırım faciələri bizi dərindən sarsıdıb. Bütün bunlara baxmayaraq, döyüş ruhumuz heç vaxt yenilməyib, ədaləti bərqərar edəcəyimizə, haqqımız olanı geri alacağımıza, tökülən qanların yerdə qalmayacağına inam bizi yaşadıb və gücləndirib.

44 günlük Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirləri zamanı Silahlı Qüvvələrimiz "dəmir yumruq" zərbəsi ilə erməni işğalçılarını darmadağın edib. Qazanılan möhtəşəm hərbi zəfər xalqımızın həyatında yeni bir qürur səhifəsi açıb, dövlətimizi şərəfləndirib.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti həm Vətən müharibəsi, həm də antiterror tədbirlərində layiqincə iştirak edərək şanlı tarixin yazılmasına öz töhfəsini verib.

Antiterror əməliyyatının iştirakçılarından biri də ehtiyatda olan əsgər Əliyev Ramin Rasim oğludur. Qazilik məqamınadək keçdiyi yol onu fədakar gənc kimi xarakterizə edir.

O, 1993-cü il iyunun 15-də Goranboy rayonunun Borsunlu kəndində doğulub. Rasim Əliyev və Xatirə Əliyevanın üç övladından yaşca böyüyüdür. Qardaşı Zaur Əliyev və bacısı Humay Quliyeva ilə birlikdə xalqımızın mənəvi dəyərlərinə bağlı olan zəhmətkeş bir ailədə boya-başa çatıb. Valideynlərindən halallıq və xeyirxahlıq tərbiyəsi alıb.

Borsunlu kənd Tanrıqulu Əliqulu adına 1 saylı tam orta məktəbin məzunudur. Şagird ikən tarix, çağırışaqədərki hazırlıq, fiziki tərbiyə və musiqi fənlərinə daha çox maraq göstərib. Məktəbdə oxuduğu dövrdən hərbçi peşəsinə rəğbət bəsləyib. İdmanın boks növü ilə məşğul olaraq öz məharətini, fiziki hazırlığını davamlı şəkildə artırıb.

2009-2013-cü illərdə Gəncə Musiqi Kollecində təhsil alaraq xalq çalğı alətləri - tar, orkestr rəhbəri, uşaq musiqi məktəbində musiqi müəllimi ixtisasına yiyələnib, ona subbakalavr dərəcəsi verilib. Tar onun sevdiyi və səsindən valeh olduğu musiqi alətidir. Ümumiyyətlə musiqiçi sənətinə marağı, tarda ifası Raminin yaradıcı dünyagörüşünün təzahürüdür.



2013-cü ilin iyul ayında Ramin müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Pirəkəşkül qəsəbəsində yerləşən "N" saylı hərbi hissəsində hərbi and içərək xidmət keçib. Snayper və top heyət nəfəri vəzifələrində nümunəvi cəhətdən fərqlənib, beynəlxalq hərbi əməkdaşlıq çərçivəsində təşkil olunan təlimlərə qatılıb. Komandirləri tərəfindən xidmət müddətində həvəsləndirilib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2015-ci ilin yanvar ayında ordu sıralarından ehtiyata buraxılıb.

Hərbi xidmətdən qayıtdıqdan sonra Ramin qarşıda duran həyat yolu haqqında düşünərkən öz bilik və bacarıqlarını hərbçi peşəsinə yönəltməyi qərarlaşdırıb. 2016-cı ilin yanvar ayında Daxili Qoşunların komandanlığına müraciəti müsbət cavablandırılaraq müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin manevr qrupunun radiotelefonçu-atıcısı və xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı vəzifələrində xidmət edərək komandanlığın etimadını doğruldub. Təlim-tədris prosesində yüksək nailiyyətlər əldə etdiyinə, funksional vəzifələrinin icrasında işgüzarlığına və təşəbbüskarlığına, hərbi intizamın qorunub saxlanılmasında fəallığına görə komandirləri tərəfindən bir neçə dəfə mükafatlandırılıb. Silahdaşlarının hörmətini qazanaraq heç vaxt onlardan köməyini əsirgəməyib. Dəstənin təyinatından irəli gələn müxtəlif tapşırıqların yerinə yetirilməsində əzmkarlıq nümayiş etdirib.

Ağstafa rayonundakı Keşikçidağ məbədinin yerləşdiyi ərazidə ictimai təhlükəsizliyin qorunması, koronavirus pandemiyası dövründə Gəncə şəhəri, Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında karantin rejiminin təmin olunması üzrə xidmətə çıxıb.

44 günlük Vətən müharibəsi zamanı Ramin Gəncə şəhəri, Gədəbəy və Goranboy rayonlarındakı komendant postlarında sayıqlıqla xidmət aparıb. Həmin vaxt erməni ordusu tərəfindən raketlərlə atəşə tutulan Gəncədə bəzi binalar dağıdılıb, dinc sakinlər həlak olub və xəsarət alıblar. Hərbi qulluqçularımız və ailə üzvlərinin də həyatlarına təhlükə yaranıb. Müharibə getdiyi günlərdə o, hərbçi olaraq komandanlığın istənilən döyüş əmrini yerinə yetirməyə hər cəhətdən hazır olub. Bu barədə komandirlərinə də deyib. Ancaq belə zərurət yaranmayıb.

İşğaldan azad edilmiş Şuşa, Laçın şəhərləri, Zəngilan, Xocavənd, Kəlbəcər və digər rayonlarda təhlükəsizliyin mühafizəsi üzrə xidmətə cəlb olunub.

17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin komandirinin müavini kapitan Eltun Orucov, qazilər, ehtiyatda olan gizir Səxavət Zeynalov, ehtiyatda olan gizir Əbülfəz Eyvazov, istefada olan əsgər Samir Mirzəyev, xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun sürücü-atıcısı baş əsgər İzzət Seyfullayev, götürmə qrupunun sürücü-atıcısı əsgər Vüqar Quliyevə Ramin barədə suallar ünvanladım. Fikirlərini öyrəndiyim bu zabit, qazilər və müddətdən artıq xidmət edən hərbi qulluqçuların sözlərinə görə, Ramin intizamı, etik davranışı, vəzifə borcuna ciddi yanaşması, vətənpərvərlik əqidəsi, silahdaşlarına hörməti ilə seçilən hərbi qulluqçu olub. Hərbçi peşəsinin şərəfini uca tutub.

Müsahiblərim məlumat verdilər ki, 2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağ bölgəsində keçirilmiş antiterror əməliyyatında iştirak edən hərbçilərdən biri kimi Ramin döyüş sınağında hərbi anda sadiq qalıb. Dəstə komandiri polkovnik-leytenant Rəşad Hüseynovun rəhbərliyi altında şəxsi heyət sentyabrın 20-nə keçən gecə Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndinə (hazırda bu kənd Ağdərə rayonuna daxildir) göndərilib. Avtomobillərlə hərəkət zamanı yolda düşmənin ilk pusqusuna düşüblər. Hərbi qulluqçularımız hücumu dəf edərək işğalçıların atəş nöqtələrini susdurublar. Ramin komandirin döyüş əmrini qətiyyətlə yerinə yetirərək vuruşub. O, bədəninin müxtəlif nahiyələrindən yaralanıb, habelə ağır dərəcəli qapalı kəllə-beyin travması alıb. Rəvan adlı döyüşçü ona ilk tibbi yardım göstərib. İlk təxliyyə olunan yaralılarla ərazidən arxaya çıxarılıb.

Dəstənin hərbi qulluqçularının bir qismi təyin edilmiş hüdudlar istiqamətində piyada şəklində hərəkəti davam etdiriblər. Vəngli kəndi yaxınlığında onlar işğalçıların ikinci pusqusuna düşüblər, mərdliklə vuruşan 11 nəfər hərbçimiz ərazidəcə şəhidlik zirvəsinə ucalıb. Orada ağır yaralanan polkovnik-leytenant R.Hüseynov və 3 nəfər döyüşçü sağ qalıblar. Ancaq dəstə komandiri növbəti gün hərbi qospitalda şəhadətə yüksəlib. Göstərilən istiqamətdə də düşmən məqsədinə nail ola bilməyərək geri çəkilib.

Kəlbəcərdəki hərbi qospital, Gəncədə yerləşən xəstəxana, Daxili Qoşunların Hərbi Qospitalında Raminin üzərində cərrahiyyə əməliyyatları aparılıb, bədənindən güllə və qəlpələr çıxarılıb, həmçinin yaralanmanın digər fəsadları ilə bağlı müalicə kursu keçib. Bədənində bəzi xırda qəlpələr qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq Sərəncamı ilə əsgər R.Əliyev "İgidliyə görə" medalı ilə təltif edilib.

2024-cü ilin avqust ayında Ramin səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb. Daxili Qoşunların Baş İdarəsinin Tibb xidmətinin hərbi-həkim komissiyası tərəfindən verilən xəstəlik haqqında şəhadətnamədə onun dinc dövrdə hərbi xidmətə yararsız, müharibə dövründə isə məhdud yararlı olduğu barədə qeydlər öz əksini tapıb.

Qazi hazırda Gəncə şəhərində yaşayır, sağlamlığını itirdiyindən heç bir yerdə işləmir, müalicəsini davam etdirir. Türkan xanımla evli olan Raminin Raul adlı oğlu, Adel adlı qızı var, onlar azyaşlıdırlar. Övladlarının qalib ölkənin vətəndaşı kimi böyüyəcəklərinə görə qürur duyur. Əzizlərinin sevgi və qayğısı ona aldığı yaraların fəsadlarına dözməyə güc verir. Tarda ifa mənəvi ovqatını yüksəldir. Döyüşçü missiyasını ləyaqətlə başa vuraraq qazi adını daşıyan Ramin vətənpərvərlik əqidəsinə daim sadiq qalacağını deyir.

**Yalçın Abbasov**

4_Layout 1 27.02.2025 10:56 Page 1



# MÖHKƏM HƏRBİ İNTİZAMA NAİL OLAN BÖLÜK








16075 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Bölük komandiri baş leytenant Zaur Mehtiyev bildirdi ki, hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkının, anbarlarının mühafizə və müdafiəsi komendant bölüyünün şəxsi heyəti tərəfindən təmin olunur. Bölük döyüş xidmətinin yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirir.

Hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Şəxsi heyətin sağlamlığını, mənəvi-psixoloji durumunu əsas şərt kimi dəyərləndirən zabit digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi, onların bilik və bacarıqlarının artırılmasına təkan verdiyini nəzərimizə çatdırdı.

Döyüş xidmətindən əvvəl müvafiq plana əsasən, bölük komandiri və onun tərbiyə işləri üzrə müavini tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri çatdırılır: "Ümumiyyətlə xidmətə cəlb edilənədək hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu kapitan Peykər Cabbarova xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbət aparır. Qarovulun xidmətinə nəzarət edərkən postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılması da diqqət mərkəzində saxlanılır".

Bölük komandiri qeyd etdi ki, keçirilən təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyət postda xidmət apararkən daha ayıq-sayıq, çevik olur, tapşırılmış obyektin mühafizəsini qüsursuz yerinə yetirir.

Komendant bölüyündə xidmətin təşkili, hərbi qulluqçuların xidmətə hazırlanması və qarovulun yoxlanılmasında bölük komandirinin müavini baş leytenant Musa Pirverdiyevin yaxından iştirak etdiyini deyən baş leytenant Z.Mehtiyev onun bacarıqlı və çalışqan zabit olduğunu bildirdi.

Bölük komandiri nümunəvi xidmətilə şəxsi heyətə örnək olan hərbi qulluqçulardan kiçik çavuş Coşqun İbrahimov, əsgərlər İmaməddin Ağayev, Sunay Səmədov və Səyyar Əsgərovun adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

# QOSPİTALIN QƏBUL ŞÖBƏSİNİN FƏALİYYƏTİ TƏQDİRƏLAYİQDİR




Bu gün Daxili Qoşunların şəxsi heyətinin sağlamlığını qoruyan Hərbi Qospitalın həkim və orta tibb heyəti vəzifələrinin öhdəsindən məharətlə gələrək hərbi qulluqçularımızın qısa müddətdə və keyfiyyətlə müalicə olunmalarını təmin edir. Şəxsi heyətin və onların ailə üzvlərinin, veteranlarımızın sağlamlığının keşiyində uğurlu fəaliyyət göstərən Hərbi Qospital öz işini ildən-ilə təkmilləşdirir.

Daxili işlər nazirinin və daxili qoşunların komandanının hərtərəfli diqqət və qayğısı ilə əhatə olunan tibb müəssisəsi xəstələrin sağlamlığına qovuşmaları üçün ən son texniki avadanlıqlarla təchiz olunub.

Hərbi Qospital - 12576 saylı hərbi hissənin fəaliyyəti baxımından ən önəmli şöbələrindən biri qəbul şöbəsidir. Şöbə rəisi tibb xidməti mayoru Ceyhun Abbasovun sözlərinə görə, qəbul şöbəsinin xidməti "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında" Təlimatın təsdiq edilməsi barədə" müvafiq əmrin tələblərinə tam uyğundur.

Tibb xidməti mayoru C.Abbasov bildirdi ki, artıq Hərbi Qospitalda çalışan bütün mütəxəssislər müayinələri ancaq qəbul şöbəsində həyata keçirirlər. Şöbədə oftalmoloq, lor həkimi və xüsusi ağır xəstələrin müayinəsi üçün ekspres laboratoriyanın işi təşkil olunub. Sarğı otağı modernləşdirilib, yeni avadanlıqlarla tam təchiz edilib və xəstələrin rahatlığı üçün hərtərəfli şərait yaradılıb. Həmçinin bütün ambulator əməliyyatların burada aparılması planlaşdırılır.

Şöbənin qabaqcıl olmasında tabeliyində olan hərbi qulluqçuların hər birinin zəhmətinin danılmaz olduğunu xüsusi qeyd edən tibb xidməti mayoru C.Abbasov gizirlər Sveta Quliyeva və Fidan Poladovanı nümunəvi, məsuliyyətli hərbi qulluqçular kimi müsbət xarakterizə edərək onların əməyini layiqincə qiymətləndirdi.

Qəbul şöbəsinin bütün tibb personalına şərəfli xidmətlərində uğurlar diləyirik.

**kapitan Nigar Ağayeva**

# "QAZANXANA QURĞULARINA QULLUQ ZAMANI MÜVAFİQ TƏLİMATIN TƏLƏBLƏRİNƏ ƏMƏL OLUNUR"



99713 saylı hərbi hissənin qazanxanası gündəlik xidmətini təhlükəsizlik qaydaları üzrə müvafiq təlimatların tələblərinə əsasən təşkil edir. Qazanxana, qazanlar və bütün digər avadanlıqların hər zaman saz vəziyyətdə, təmiz və səliqəli saxlanılması təmin olunur.

Maddi-texniki təminat xidmətlərinin qazanxana rəisi baş çavuş Sarvan İsmayılov qeyd etdi ki, qazanlar işə salınmazdan öncə onların və digər avadanlıqların işlək vəziyyətdə olması diqqətlə yoxlanılır. Yalnız qazanxana rəisinin göstərişindən sonra qazanlar və qurğular işə salınır. Qazanxana qurğularına qulluq zamanı müvafiq təlimatın tələblərinə əməl olunur. Həmçinin müəyyən nasazlıqlar yarandıqda və ya qazanın yanma kamerasının qaz yollarında hər hansı bir iş görülərkən təhlükəsizlik qaydalarına ciddi riayət edilir.

Bundan əlavə, qazanxananın içini kənar əşyalarla doldurmaq, orada hər hansı material və ya əşyaların saxlanılması, eləcə də qazanxanaya kənar şəxslərin daxil olması qətiyyətlə qadağandır. Elektrik avadanlıqlarını qısaqapanmadan və artıq yüklənmədən qorumaq, baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə qoruyuculardan istifadə edilir. Qazanların yuyulması və təmizlənməsi üçün onların dayandırılması müvafiq qrafikə əsasən həyata keçirilir. Qazanxana rəisi söylədi ki, həmin qrafik qazanların konstruksiyası və istismar şərtləri nəzərə alınmaqla hazırlanır və hərbi hissə komandiri tərəfindən təsdiq olunur. Ümumiyyətlə hər 3 aydan bir qazanxanaya ümumi baxış keçirilir.

Qazanxana rəisi görülən işlərdə qazanxana operatorları Zaur Ələsgərov, Zülfüqar Qasımov, İkram Kərimov və Elman Rzayevin zəhmətini yüksək qiymətləndirdi, onların qarşıya qoyulan tapşırıqları vaxtında və keyfiyyətlə icra etdiklərini bildirdi.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR ·YENİLİKLƏR ·

### Hindistan 155 mm-lik yeni artilleriya sistemini təqdim edib




Hindistanda yerləşən müdafiə sənayesi istehsalçısı "Kalyani Group" IDEX 2025 sərgisində 4x4 yüksək hərəkət qabiliyyətinə malik vasitəyə quraşdırılmış yeni 155 mm-lik artilleriya sistemini təqdim edib. Ordu.az xəbər verir ki, konvensional mərmilərlə 36 kilometrdən çox mənzilə, intensiv rejimdə 3 dəqiqədə 10 mərmi və davamlı rejimdə 60 dəqiqədə 42 mərmi atış sürətinə malik olan sistem "MArG 18" mərmilərindən istifadə edə bilər və gündüz 1,5 dəqiqəyə, gecə isə 2 dəqiqəyə hərəkətə hazır olur.

Məlumata görə, "MArG 18"in əlavə xüsusiyyətləri arasında -2 ilə +72 dərəcə yüksəklik diapazonu, 25 dərəcə sola və sağa çarpaz keçid yer alır.

*NÜMUNƏVİ XİDMƏT*

# LAYİQLİ XİDMƏTİLƏ SEÇİLƏN HƏRBİ QULLUQÇU



Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin nümunəvi bölmələrindən olan qərargahın məxfi hissəsi öz fəaliyyətini daxili işlər nazirinin və daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmr və göstərişlərinin tələbləri əsasında təşkil edir.

Hərbi hissənin qərargahının məxfi hissəsinin rəisi gizir Rüfət Əzizov hərbi hissə komandanlığı tərəfindən intizamlı, savadlı və bacarıqlı hərbi qulluqçu kimi xarakterizə olunur. O, 1984-cü ilin iyul ayının 26-da Ermənistan Respublikasının Amasiya rayonunda anadan olub. 1992-2003-cü illərdə Gəncə şəhərində yerləşən 9 saylı orta məktəbdə təhsil alıb. 2003-2007-ci illərdə Azərbaycan Dövlət Aqrar Universitetində aqronom ixtisasına yiyələnib. 2007-ci ilin iyul ayından 2008-ci ilin iyul ayınadək Müdafiə Nazirliyinin Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Xidmət müddətində İraqda Azərbaycanın sülhməramlı kontingentinin tərkibində olub. 2008-2010-cu illərdə Azərbaycan Dövlət Aqrar Universitetində ali təhsilin magistratura pilləsini meyvəçilik ixtisası üzrə bitirib.

2013-cü ildən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edir. 2018-ci ildən məxfi hissə rəisidir.

Gizir R.Əzizov verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyinə görə dəfələrlə hərbi hissə komandanlığı tərəfindən müxtəlif mükafatlara layiq görülüb. Daxili işlər nazirinin 29 iyun 2022-ci il tarixli müvafiq əmri ilə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.

Vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçumuza bundan sonra da xidmətində uğurlar arzu edirik.

**17072 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# BACARIQLI RADİOTELEFONÇU



16075 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Cəmil Əliyevdir. O, 2023-cü ilin oktyabr ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Həmin ilin noyabr ayında 25032 saylı hərbi hissədə kiçik mütəxəssis hazırlayan bölmədə rabitəçi kursuna başlayıb. Kursu tamamladıqdan sonra xidmətini davam etdirmək üçün 16075 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsinə təyin edilib.

Əsgər C.Əliyev 2005-ci il sentyabrın 15-də Ağcabədi rayonunun Taynaq kəndində anadan olub. 2011-2022-ci illərdə doğma kəndində yerləşən Rabil Quliyev adına orta məktəbdə oxuyub. Uşaq yaşlarından musiqiyə maraq göstərib, 2015-2022-ci illərdə Sarıcalı musiqi məktəbində tar aləti üzrə musiqi təhsili alıb. 2022-2023-cü illərdə Ağdam Musiqi Kollecində saz ifasını öyrənib.

Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissənin bölmələri ilə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılır.

Əsgər C.Əliyev xidməti-vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir. O, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**16075 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# MƏSULİYYƏTLİ VƏ PEŞƏKAR SÜRÜCÜ




Şəxsi heyətin, habelə müxtəlif yüklərin vaxtlı-vaxtında daşınmasında peşəkar sürücü hərbi qulluqçuların rolu böyükdür.

Qəzetimizin bu sayında 12318 saylı hərbi hissənin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Səbuhi Ələkbərov haqqında yazmaq qərarına gəldik.

Əsgər S.Ələkbərov 2001-ci il noyabrın 8-də Bakı şəhərində doğulub. 2007-2016-cı illərdə Bakı şəhərində yerləşən Milli Konservatoriyanın tərkibindəki Respublika İncəsənət Gimnaziyasında 9-cu sinifə kimi orta təhsil alıb. 10-11-ci sinifləri paytaxtın Səbail rayonunda yerləşən 51 saylı tam orta məktəbdə oxuyub. 2018-2022-ci illərdə Səbuhi Azərbaycan Universitetində biznesin idarə edilməsi ixtisasına yiyələnib. 2022-ci ildə ali təhsilin magistr pilləsinə imtahan verərək Azərbaycan Texniki Universitetinin sənayenin təşkili və idarə edilməsi ixtisasına qəbul olunub.

2024-cü ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail Rayon İdarəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda 12318 saylı hərbi hissənin təminat bölüyünün avtomobil taqımının avtomobil manqasının sürücüsü vəzifəsindədir.

Təminat bölüyünün komandir heyəti tərəfindən müsbət xarakterizə olunan sürücü intizamlı, işgüzar və bacarıqlıdır. Xidmət etdiyi bölüyün döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında onun da rolu var. Qarşısına qoyulan tapşırıqların vaxtında, keyfiyyətli yerinə yetirilməsi üçün əzmkarlıq nümayiş etdirir.

Əsgər S.Ələkbərov düşünür ki, hər bir sürücünün nəqliyyat vasitələrini müxtəlif hava və yol şəraitlərində idarəetmə bacarığı olmalıdır: "Müasir dövrdə hərəkətin intensivliyinin artması ilə əlaqədar olaraq sürücülər qarşısında yüksək tələblər qoyulur. Sürücü nəinki yol hərəkəti qaydalarını mükəmməl bilməli, həm də mürəkkəb vəziyyətlərdə özünü itirməməli, piyadalara qarşı çox diqqətli və ehtiyatlı olmalıdır".

**kapitan Nigar Ağayeva**

## Allah rəhmət eləsin

17072 saylı hərbi hissənin komandanlığı baş leytenant Niyaməddin Qocayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000